**UOT 94(479.24)**
**https://doi.org/10.59849/2218-4783.2024.2.52**

**KÜBRA ƏLİYEVA**

# NAXÇIVAN BÖLGƏSİ GÜRCÜLƏRİN AZƏRBAYCANA YÜRÜŞLƏRİ ZAMANINDA (XII-XIII ƏSRİN 20-Cİ İLLƏRİNDƏ)

*Məqalədə gürcülərin XII-XIII əsrlərdə Azərbaycana hücum etməsindən bəhs olunur. Göstərilir ki, bu hücumlar nəticəsində Azərbaycan şəhərləri dağıntılara məruz qalmış, ölkənin mədəni-iqtisadi həyatına ağır zərbə vurulmuşdur. Bu yürüşlərin qarşısını almaq üçün Atabəylər gürcülər üzərinə yürüşlər təşkil etmiş, onlara qarşı apardıqları mübarizə aparmışdır. Məqalədə bütün bunlar, həmçinin, son Atabəylər zamanında gürcülərin Azərbaycan şəhərlərinə yürüşləri haqqında məlumat verilmiş, bu yürüşlər zamanı Naxçıvan ərazisinin də böyük zərər çəkməsindən bəhs olunmuşdur.*

**Açar sözlər:** *Şəmsəddin Eldəniz, Naxçıvan şəhəri, gürcülərin yürüşləri, Əbu Bəkr, Özbək, Dvin, Gəncə şəhəri.*

**Giriş.** Azərbaycan tarixinin aktual məsələlərindən biri də orta əsrlər zamanı ölkəyə edilən xarici hücumların nəticələrinin tədqiq olunmasıdır. Zaman-zaman ölkəyə sasanilər, ərəblər, slavyanlar, qıpçaqlar, gürcülər, monqollar hücumlar etmişlər. Bu yürüşlərin hər biri ölkənin iqtisadiyyatına, mədəni həyatına ciddi ziyan vurmuşdu. Bu yürüşlərdə Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvan bölgəsi də ciddi ziyan çəkmişdi. Azərbaycan Atabəyləri dövründə isə gürcülərin Azərbaycana etdiyi yürüşlərdə bu qəbildəndir. Məqalədə bu yürüşlər zamanı Naxçıvanın mövqeyi, oradan əsas istinadgah kimi istifadə edilməsi məsələsi araşdırılmışdı. XII əsrin ikinci yarısında gürcülərin yürüşlərinin qarşısı alınmış, hətta onlar üzərinə yürüşlər təşkil edilmişdi. Lakin XII əsrin 90-cı illərindən sonra vəziyyət kəskin şəkildə dəyişmişdi, Atabəylər dövlətinin daxilindəki hakimiyyət mübarizəsi ölkəni gürcü hücumlarına qarşı müdafiəsiz hala salmışdı. Həmçinin hakimiyyət mübarizədə gürcülərlə ittifaq bağlanmışdı.

**İlk Atabəylər zamanında gürcü yürüşləri**. Hələ Atabəylər dövləti qurulmamışdan qabaq da gürcülər Azərbaycana yürüşlər edirdilər. İraq Səlcuq sultanlığının zəiflədiyi bir zamanda gürcülər Sultan Mahmuda (1119-1131) tabe torpaqlara yürüşə başlamışdılar. Bu yürüşün qarşısını almaq üçün Sultan Mahmud mübarizəyə başlamışdı. Bu zaman Arran və Naxçıvanın hakimi şahzadə Toğrul (Sultan II Toğrul (1132-1134)) gürcülər üzərinə yürüşə rəhbərlik edirdi. Bu yürüşdə gürcülər qalib gəlmişdi və Tiflis mühasirəyə alınmışdı [2, s. 21; 4, s. 149].

İraq Səlcuq sultanlığında Sultan II Toğrulun ölümündən sonra hakimiyyətə sultan Məsud gəldi və Şəmsəddin Eldənizi (1136-1175) Arrana öz hakimi təyin etdi. Həmçinin, Şəmsəddin Eldənizlə II Toğrulun arvadı Möminə xatunu evləndirdi. Bu nikahdan Şəmsəddin Eldənizin iki oğlu (Məhəmməd Cahan Pəhləvan və Qızıl Arslan) və bir qızı oldu [14, s. 160]. Qısa müddət ərzində Arranda öz hakimiyyətini qurduqdan sonra Şəmsəddin Eldənizlə gürcülər arasında münaqişələr başlandı. Onlar fürsət düşdükcə Azərbaycan şəhərlərinə hücumlar edirdilər.

Hicri 550-ci ildə (1150-1151-ci illər) Sultan Məsudun ölümündən sonra İraq Səlcuq sultanlığında hakimiyyət uğrunda mübarizə başlandı. Hakimiyyətə Sultan Məsudun qardaşı oğlu Məlikşah (1151-1153) gəldi, lakin qısa zaman ərzində o, devrildi. Süleyman Şah (1153, 1159-1161) və Sultan Məhəmməd (1153-1159) arasında hakimiyyət mübarizəsi gedirdi. Səl-

cuq əmirlərindən Əmir Ağsunqur ül-Həmədanini Arslanşahı (1161-1177) qorumaq üçün Azərbaycana – Şəmsəddin Eldənizin yanına gətirdilər [9, s. 214; 11, s. 94; 14, s. 160]. Qeyd edək ki, Arslanşahın anası Möminə xatın Şəmsəddin Eldənizin arvadı idi. Şəmsəddin Eldəniz Süleyman şahı dəstəkləyirdi, Süleyman şah məğlub oldu. Sultan Məhəmməd Şəmsəddin Eldənizi oğlunu (Məhəmməd Cahan Pəhləvan) girov qoymaq qarşılığında bağışlayacağını bildirdi. Lakin xəlifə əl-Müqtəfinin (1136-1160) təhriki ilə Şəmsəddin Eldəniz tabe olmaqdan boyun qaçırdı. Belə ki, Şəmsəddin Eldənizin oğulluğu Arslanşah hakimiyyətə gələrsə o, daha da qüvvətlənəcəkdi. 1157-ci ildə Sultan Məhəmmədlə Şəmsəddin Eldəniz arasında Rey yaxınlığında və Naxçıvanda döyüşlər baş verdi. Döyüşlərin hər ikisi Sultan Məhəmmədin qələbəsi ilə nəticələndi. Şəmsəddin Eldənizin ona qarşı olmasına baxmayaraq Sultan Məhəmməd onu bağışladı və Arrana hakim təyin etdi [12, s. 368; 2, s. 44-45; 6, s. 23-24]. Hicri 552-ci ildə (1157-1158) Sultan Məhəmməd İraq üzərinə hücuma keçəndə Şəmsəddin Eldənizdən başqa bütün əmirlər iştirak edirdi. Tarixçi əl-Hüseyni yazırdı ki, bu zaman gürcülər Azərbaycana hücum etdiyindən Şəmsəddin Eldəniz bu yürüşdə iştirak edə bilmədi [11, s. 94].

III Georginin (1156-1184) rəhbərlik etdiyi gürcü qoşunları 1161-ci ildə Aniyə hücum etdi. Xilat hakimi Seyfəddin Bəy Teymuri (1185-1193) Ani şəhərinə kömək etmək istədi (Xilat – Əxlat, Van gölünün cənubunda, Türkiyə Respublikası ərazisində şəhər). Lakin gürcü qüvvələri çox olduqlarına görə Xilat hakimi məğlub oldu və gürcülər çoxlu əsir götürdülər. Gürcülər Ani şəhərini qarət etdikdən sonra Dvin şəhərinə (və ya Dəbil şəhəri) hücum etdilər. Tarixçi İbn əl-Əsirin verdiyi məlumata görə gürcülər 10 minə qədər insanı qarət edib öldürdülər [4, s. 151-152]. Qısa zaman ərzində gürcülər Gəncə şəhərinə hücum etdilər, bu hücumdan xəbər tutan Şəmsəddin Eldəniz qoşunlarını toplayıb Gürcüstan üzərinə hücum etdi. Şəmsəddin Eldəniz müsəlman əmirləri – Xilat hakimi Seyfəddin Bəy Teymuri, Marağa hakimi Nüsrətəddin Arslan-Aba, Ərzən ər-Rum hakimi Fəxrəddin və başqa hakimlərlə birləşərək 1163-cü ildə gürcülər üzərinə yürüşə başladılar [4, s. 152]. İlk olaraq gürcülər Dvində məğlub edildi və şəhər azad edildi. Ümumi olaraq Şəmsəddin Eldəniz bu yürüşü qalibiyyət və qənimət ilə başa çatdırdı. Həmçinin, gürcülərlə bağlanan razılaşmaya əsasən gürcü şahzadəsi Elikum Şəmsəddin Eldənizin sarayına göndərildi. Şəmsəddin Eldəniz Miyanə şəhərinin idarəsini Elikuma tapşırdı. Məhəmməd Cahan Pəhləvanın zamanında isə Naxçıvan şəhəri, Culfa və Əlincəqalanın idarəsi Elikuma tapşırılmışdı və ona İslam dini qəbul etdirilmişdi [2, s. 61; 20, s. 922]. Gürcülərin Ani, Dvin və Gəncə şəhərlərinə yürüşü haqqında tarixçi əl-Hüseyni qismən fərqli məlumat verir. Belə ki, gürcülərin Ani və Dəbil şəhərlərinə hücum xəbərini Şəmsəddin Eldəniz Həmədanda olarkən aldı. Şəmsəddin Eldəniz Azərbaycana dönməyə hazırlaşdığı zaman gürcü məliyindən məktub gəldi. Bu məktubda bildirilirdi ki, gürcülər Gəncə və Beyləqandan vergi tələb edirlər. Bu xəbəri eşidən sultan Arslanşah bütün əmirləri Naxçıvana toplayıb Gürcüstan üzərinə yürüşə başladı. Gürcülərlə birləşmiş qüvvələr arasında Lukri qalası (Həmdullah Qəzvini bu qalanı Kak qalası adlandırır) ətrafında baş verən döyüşdə gürcülər məğlub oldular [11, s. 111-114; 12, s. 369; 16, s. 81; 14, s. 53]. Buradan da aydın olur ki, Naxçıvan şəhəri nəinki Atabəylər üçün mərkəz idi, eyni zamanda İraq Səlcuq sultanları üçün də Azərbaycanda əsas məntəqə rolunu oynayırdı.

1166-cı ildən gürcülərlə Eldənizlər arasındakı münasibətlərdə qısa müddətli sakitlik dövrü başlandı. Gürcülərin növbəti yürüşləri hicri 569-cu ildə (1173-1174) baş verdi. Tarixçi Ravəndinin verdiyi məlumata görə, Möminə xatın Azərbaycandan Həmədana gələrək Abxazların yürüşü haqqında Sultana məlumat verdi. Lakin akademik Ziya Bünyadov məlumatı daha da dəqiqləşdirərək Möminə xatunun Naxçıvandan Həmədana getməsi haqqında məlumat verir

[15, s. 2, 64]. Tarixçi Rauf Məmmədov Mömin xatunun Arslanşahı razı salmaq üçün Naxçıvandan Həmədana getdiyini bildirir [5, s. 74]. Daha sonra Sultan Arslanşah qoşun toplayaraq Həmədandan Naxçıvana gəldi, o, Qurban bayramını Naxçıvanda keçirdi. Gürcüstan (Ravəndi və əl-Hüseyni gürcüləri "Abxazlar" olaraq göstərmişlər) üzərinə hücuma hazırlaşan Arslanşah xəstələndi və anası (Mömin xatın) ilə birlikdə Kiliya qalasına getdi. Qısa müddət sonra Kiliyadan Dvinə və oradan da Araz kənarına gəldi. Məlum oldu ki, ordu arasında taun xəstəliyi yayılıb və xəstəlik orduya ciddi tələfat törətdi. Bu fəlakətə baxmayaraq sultanın qoşunu qalib gəldi. Müttəfiqlər Ağşəhər qalası (Çıldır gölü yaxınlığında, Qars-Axalkalaki yolundakı Tetris-Tsixe qalası) ələ keçirildi. Bu qalibiyyətdən sonra Arslan şah Naxçıvana gəldi və təqribən 50 gün burada qaldı [15, s. 284-285; 21, s. 149-150; 2, s. 64].

1174-cü ilin oktyabrında gürcülər yenidən Ani şəhərinə hücum etdilər və şəhəri ələ keçirdilər. Şəmsəddin Eldəniz Ani üzərinə qoşun göndərsə də məğlub oldu. Qısa müddət sonra Eldəniz gürcülər üzərinə yürüşə başladı, tərəflər Dvin yaxınlığında üz-üzə gəldilər. Lakin heç bir döyüş əməliyyatı baş vermədi [2, s. 65]. Bu uğursuzluqla barışmayan Elədəniz növbəti il Sultan Arslanşah, Xilat hakimi Seyfəddin Bəy-Teymuri və oğlanları Məhəmməd Cahan Pəhləvan (1175-1186) və Qızıl Arslanın (1186-1191) başçılıq etdiyi Diyarbəkir qoşunu ilə birlikdə Gürcüstana yürüşə başladı. Eldəniz bu yürüşdən müvəffəqiyyətlə Naxçıvana geri döndü [2, s. 65; 17, s. 544].

Şəmsəddin Eldənizdən sonra hakimiyyətə gələn Məhəmməd Cahan Pəhləvanın hakimiyyət müddəti sakit dövr kimi xarakterizə edilir. Məhəmməd Cahan Pəhləvan Sultan III Toğrulun (1177-1194) Atabəyi olduqdan sonra daha da qüvvətləndi. Belə ki, Sultan III Toğrul yaşının azlığından dövlət işlərinə qarışa bilmirdi və demək olar ki bütün hakimiyyət Məhəmməd Cahan Pəhləvanın əlində idi [13, s. 20]. Məhəmməd Cahan Pəhləvan gürcülər üzərinə yürüş etdi və heç bir müqavimətə rast gəlmədi. Gürcülərin göndərdikləri elçilərlə sülh bağlayıb İraqa döndü. Azərbaycan və Arranı qardaşı Qızıl Arslanın (1186-1191) idarəsinə verdi [11, s. 120; 2, s. 78]. Bu zaman Məhəmməd Cahan Pəhləvanın türk qızından olan oğlu Əbu Bəkr də Qızıl Arslanın yanında idi.

Məhəmməd Cahan Pəhləvandan sonra hakimiyyətə gələn Qızıl Arslanın dövründə vəziyyət nəzərə çarpacaq dərəcədə dəyişdi. Belə ki, o gürcülər üzərinə yürüşlər təşkil etdi. Qızıl Arslan ilk öncə Bitlis şəhərinə yürüş edib, özünə tabe etdi. Bitlis şəhərinin ardınca gürcülər üzərinə yürüş etdi. Bu yürüşdə onu gürcü sarayından qovulmuş Georgi Rus da müşayiət edirdi. Bu yürüşünü müvəffəqiyyətlə başa çatdıran Qızıl Arslan Georgi Rusu Gəncə və Arranın hakimi təyin etdi [2, s. 95; 10, s. 421].

**Son Atabəylərin fəaliyyəti**. Atabəy Qızıl Arslanın ölümündən sonra ölkədə vəziyyət ciddi şəkildə dəyişdi. Hakimiyyət uğrunda mübarizə başladı. Məhəmməd Cahan Pəhləvanın oğlanları hakimiyyətə gəlmək üçün bir-birləri ilə mübarizə edirdilər. Tarixçi əl-Hüseyninin verdiyi məlumata görə Əbu Bəkr Qızıl Arslanın ölüm xəbərini eşitdikdən sonra Naxçıvana gəldi. Bu zaman Naxçıvanı Məhəmməd Cahan Pəhləvanın arvadı Zahidə xatın idarə edirdi. Əbu Bəkr Naxçıvandan sonra Gəncəyə getdi və bir-birinin ardınca Eldənizlər dövlətinin şəhərləri onun hakimiyyəti altında düşdü [11, s. 127; 7, s. 97]. Əbu Bəkrin hakimiyyətini qəbul etməyən Əmir Əmiran Ömər döyüşsüz Təbrizə daxil oldu, ardınca Əbu Bəkrin yaşadığı Naxçıvan şəhərinə hücum etdi. Naxçıvanda qardaşlar arasında döyüş baş verdi və Əbu Bəkr qalib gəldi, Əmir Əmiran Ömərin ordusu dağıdıldı. Bu məğlubiyyətdən sonra Əmir Əmiran Ömər Şirvanşahlar dövlətinə sığındı. Şirvanşah Axistan Əmir Əmiran Öməri ordu və ləvazimatla təchiz etdi və onu öz qızı ilə nikahlayaraq qohumluq əlaqəsi yaratdı. Əmir Əmiran Ömər

Şirvanşahlarla münasibətləri qaydasına saldıqdan sonra Gürcüstana gəldi və gürcü Tamar ilə (1184-1213) danışıqlara başladı. Bu müttəfiqlik Tamar və gürcülərin Atabəylər siyasəti üçün əlverişli fürsət idi. Məlumdur ki, Atabəylərlə gürcülər arasında baş verən savaşlar gürcülərin məğlubiyyətilə nəticələnmişdi. Bu müttəfiqliklə onlar Atabəyləri zəiflədib özlərindən asılı hala sala biləcəklərdi. Gürcülər və Şirvanşahlarla bağlanan ittifaqdan sonra Əmir Əmiran Ömər Azərbaycan üzərinə yürüş etdi. Müttəfiqlər və Atabəy qoşunları Beyləqan ətrafında baş verən döyüşdə Əbu Bəkr məğlub oldu və Naxçıvana çəkildi. Əmir Əmiran Ömər isə Gəncəyə tərəf yürüş etdi. Atabəyə sadiq qalan Gəncə şəhəri bir müddət müdafiə olunsa da, Əmir Əmiran Ömər gürcü qoşunlarının köməyi ilə şəhəri ələ keçirdi [11, s. 129-131].

Əmir Əmiran Ömər Gəncəni ələ keçirdikdən sonra qısa müddətdə burada qala bildi və sonra öldü. Onun ölüm xəbəri Əbu Bəkrə çatdıqda Gəncəyə gəldi və möhkəmləndi. Bu xəbəri eşidən gürcülər Gəncə üzərinə hücum etdi. Lakin Gəncəni ala bilməyəcəklərini anlayan gürcülər Naxçıvan üzərinə yürüşə başladılar. Gürcülər ilk olaraq Dvin şəhərinə gəldilər. Şəhər əhalisi Atabəydən kömək istəməyinə baxmayaraq dövlət işləri ilə maraqlanmayan Atabəy onlara heç bir yardım göstərmədi. Gürcülər Dvin şəhərini ələ keçirdikdən sonra şəhərdə qırğınlar törətdilər. Dvin şəhərinin Naxçıvana yaxın olmasından ehtiyat edən Əbu Bəkr Təbrizə çəkildi [2, s. 106-110]. Lakin gürcülər onun ardınca Təbrizə gəldilər və Zahidə xatın gürcülərə xərac verərək Təbriz şəhərini qarətdən qurtardı [2, s. 108-110; 8, s. 114]. Gürcülərin bu yürüşləri zamanı Atabəy Əbu Bəkr heç bir tədbir görmədi. Şəhərlər dağıntı və qırğınlara məruz qaldı. Qeyd edək ki, Əbu Bəkr gürcü yürüşləri zamanında Naxçıvanda yaşayırdı və Əlincəqalanın müdafiəsini gücləndirmişdi.

Ümumiyyətlə Atabəy Əbu Bəkr gürcü yürüşlərinə qarşı lazımı tədbirlər görmürdü, öz əvvəlki həyat tərzini (sərxoşluqla) davam etdirirdi, dövlətin gürcülər tərəfindən qarət edilməsinə əhəmiyyət vermirdi. Ona görə də, etdikləri qırğın və dağıntıların cəzasız qaldığını görən gürcülər intensiv hücumlar edirdilər. Belə ki, 1204-1205-ci illərdə Azərbaycana yenidən hücum etdilər. Bu dəfə Azərbaycanın içərilərinə yürüş edərək qarətçiliklə məşğul oldular. Lakin bu yürüş zamanı yerli hakimlər tərəfindən toplanan könüllü qoşunların müqaviməti ilə gürcülər məğlub edildi. Baş verən döyüşdə gürcü sərkərdəsi Kiçik Zakaren öldürüldü [2, s. 114].

Mütəmadi olaraq Azərbaycana yürüş edən gürcülər 1205-1206-cı illərdə bunu yenidən təkrar etdilər. Bu yürüş Azərbaycanın qərb vilayətlərinə qarşı yönəlmişdi. Nəhayət ki, Atabəy Əbu Bəkr bu yürüşlərin qarşısını almaq üçün tədbirlər görməyə başladı. Lakin Əbu Bəkr gürcülərin bu qarət və qırğınlarının qarşısını hərbi yolla almağın mümkün olmadığını başa düşdü. Bunun üçün Əbu Bəkr gürcü çarı ilə danışıqlara başladı və onun qızı ilə evləndi. Bu nikah diplomatiyası ilə gürcülərin yürüşü dayandırıldı [4, s. 157; 2, s. 118]. Məlumdur ki, Atabəy Əbu Bəkrin qeyri-müsəlmanla evlənməsi müsəlman dünyasında yaxşı qarşılanmayacaqdı. Buna görə də dövrün müəllifləri bu halı mənfi dəyərləndirmişdilər [4, s. 157; 8, s. 41].

Lakin atabəy Əbu Bəkrin nikah yolu ilə gürcülərin dağıdıcı yürüşlərinin qarşısını alması uzun müddət davam etmədi. Əbu Bəkrin ölümündən sonra yenidən, 1210-1211-ci illərdə gürcülərin Azərbaycan torpaqlarına yürüşləri başlandı. Gürcülərin bu yürüşünün Azərbaycan şəhərlərinə verdiyi zərəri Monqol yürüşləri ilə müqayisə edə bilərik. Gürcülər qarşılarına çıxan hər şəhəri, kəndi talayırdı, əhalini qılıncdan keçirirdi, görünməmiş vəhşiliklər törədirdilər.

Gürcülər bu yürüşə ilk olaraq Eldənizlər dövlətinin əsas mərkəzi olan Naxçıvan şəhərindən başladılar. Dövlətin əsas mərkəz şəhəri gürcülərə qarşı mərdliklə müdafiə olunurdu. Şəhərin müdafiəsini qıra bilməyəcəklərini anlayan gürcülər Naxçıvan şəhərinin mühasirəsini

dayandırıb Culfaya üz tutdular. Culfanı qarət etdikdən sonra Dərədüz keçidi ilə Mərəndə hücum etdilər. Gürcülərin yaxınlaşdığını eşidən Mərənd əhalisi şəhərin müdafiəsini təşkil edə bilməyəcəklərindən şəhəri tərk etdilər. Gürcülər Mərəndə çatanda şəhəri tamamilə boş görüb qarətə başladılar. Mərəndi qarət etdikdən sonra gürcülər Təbrizə yürüş etdilər. Bu zaman Təbrizin müdafiəsinə Məhəmməd Cahan Pəhləvanın xanımı Zahidə xatın başçılıq edirdi. Zahidə xatın Təbrizi dağıntı, qırğın və qarətlərdən qorumaq üçün gürcülərə xərac verdi. Paytaxt, sənətkarlıq və ticarət mərkəzi olan Təbrizdən alınan xərac haqqında dövrün müəllifləri deyirdilər ki, "xəracın məbləği o qədər böyük idi ki, gürcülərdə böyükdən kiçiyə hər kəs zənginləşdi" [11, s. 133; 2, s. 116]. Məlum məsələdir ki, Təbriz şəhəri Özbəyin dövründə həm mərkəz idi, həm də əsas ticarət mərkəzlərindən biri idi.

Təbrizdən ayrılan gürcü qoşunu vahid halda yürüş etmədilər, eyni anda Miyanə və Ərdəbil şəhərlərinə yürüş etdilər. Təbriz kimi Miyanəlilər də xərac verərək dağıntıdan, qırğından xilas oldular. Lakin gürcülər burada öz qoşunlarının bir hissəsini qoyub getdikdən sonra miyanəlilər şəhərdə qalan qoşun üzərinə hücum etdilər. Bunu eşidən gürcülər əsas qoşunu ilə yenidən şəhərə qayıtdılar şəhər hakimini öldürdülər, dərisini soyaraq şəhər minarəsindən asdılar. Şəhər görünməmiş qarət, qırğın, soyğuna məruz qaldı [2, s. 116]. Gürcü qoşunun digər hissəsi Ərdəbil şəhərinə üz tutdu. Gürcülər yolda Uçan şəhərini mühasirəyə alıb xərac aldıqdan sonra Ərdəbil şəhərinə yollandılar. Digər şəhərlərdən fərqli olaraq Ərdəbilə gecə vaxtı hücum etdiklərindən şəhər müdafiə oluna bilmədi. Gürcü mənbələrində "Şəhər döyüşsüz ələ keçirildi" deyə qeyd edilir [1, s. 427; 19, s. 103]. Gecə hücum edildiyindən şəhər əhalisi özlərini müdafiə edə bilməmişdi. Şəhər hakimi ailə üzvləri ilə birlikdə əsir alındıqdan sonra, gürcülərin əsas məqsədi olan qarət başlandı. Bir zamanlar Salarilər və Rəvvadilər dövlətlərinin paytaxt şəhəri olan Ərdəbildən aparılan qəniməti təsəvvür etmək mümkün deyildi.

Gürcü qoşunları Ərdəbil şəhərindən sonra Gürgan şəhərinə yürüş etdilər. Bu şəhərin də aqibəti digər şəhərlərdən fərqli olmadı. Gürgan şəhəri gürcülərin hücum etdikləri son şəhər oldu. Gürcülər yürüşü dayandırıb geri döndülər. Mənbələrin verdiyi məlumata görə gürcülərin əldə etdikləri qənimətlər o qədər çox idi ki irəliləmək mümkün deyilmiş. Naxçıvan, Ərdəbil və Təbriz kimi sənətkarlıq və ticarət mərkəzlərindən əldə edilən qənimət onlara mane olacaqdı.

Məlum məsələdir ki, Naxçıvan, Ərdəbil və Təbriz kimi sənətkarlıq və ticarət mərkəzi olan şəhərlərdən qarət edilən qənimətlə uzun müddət yürüş etmək olmazdı. Bu yürüşə qədər heç bir gürcü hücumu Azərbaycanın içərilərinə – cənub-şərq sərhədi Gürgan şəhərinədək gəlib çatmamışdı. Geri qayıdan gürcülər Naxçıvan və Beyləqan üzərinə vergi qoydular. Yenidən Mərəndə qayıtdılar, şəhər əhalisinin müqavimət göstərməyə nə gücləri, nə də ki xərac verəcək maddi vəziyyətləri var idi. Böyük yürüş kimi xarakterizə olunan 1210-1211-ci illərdə baş verən gürcü hücumları zaman, Atabəylər dövlətində Özbək hakimiyyətdə idi. Lakin Atabəy Özbək də gürcülərin dağıdıcı yürüşlərinin qarşısını ala biləcək qüvvədə deyildi.

XIII əsrdə Mərkəzi Asiyada Monqol dövləti gücləndi və Xarzəmşahlar qərbə tərəf yürüş etdilər. Xarəzmşahların Eldənizlər dövlətinə hücumu vəziyyəti daha da gərginləşdi. İlk olaraq Xarəzmşah Məhəmmədin oğlu Qiyasəddin Pirşah hücum etdi. Bu yürüşdən qurtulmaq üçün Özbək bacısı Cəlaliyyəni onunla evləndirdi [7, s. 99]. Qiyasəddin Pirşah Azərbaycanı tərk edib getdikdən sonra vəziyyətin sabitləşməsindən istifadə etmək istəyən Özbək İraqa hücum etdi. Eyni zamanda Fars atabəyi Səd ibn Zəngi (1194-1126) də İraqa hücum etdi. İraqa edilən hücumları eşidən Xarəzmşah yürüşə başladı. Qısa müddət ərzində Xarzəmşah Səd ibn Zəngini məğlub edib əsir götürdü. Xarəzmşah Məhəmməd öz vəziri Nəsrəddin Dövlətyarı Özbəyin yanına göndərərək tabe olmasını tələb etdi. Xarəzmşahın qarşısını ala biləcək qüvvəsi

olmadığını anlayan Özbək onun adına xütbə oxutdurdu. Özbəyin əsas qalaları və xəzinəsi Xarəzmşahın əlinə keçdiyindən xərac tələb edilmədi. Bu illərdə gürcülər yenidən Azərbaycana yürüş təşkil etməyə hazırlaşırdılar. Atabəy Özbək Xarəzmşahdan kömək istədi və gürcülərin bu yürüşü baş tutmadı [22, s. 30; 18, s. 366; 7, s. 98-99; 2, s. 123-124].

**Nəticə.** Azərbaycan, xüsusilə də, Naxçıvan bölgəsi Orta əsrlər dövründə mürəkkəb siyasi vəziyyət yaşamışdır. XII əsrin əvvəllərində Naxçıvan İraq Səlcuq Sultanlığının hakimiyyətində idi. XII əsrin 30-cu illərində Şəmsəddin Eldənizin Arrana hakim təyin olunmasından sonra vəziyyət dəyişdi. Arslanşahın sultan elan olunmasından sonra Şəmsəddin Eldəniz qüvvətləndi və müstəqil hakim kimi idarəçiklə məşğul olmağa başladı. Şəmsəddin Eldənizin qüvvətlənməsi şimal-qərb qonşusu gürcüləri narahat etməyə bilməzdi. Bu zaman gürcülər hər fürsət düşdükcə Azərbaycan şəhərlərinə yürüşlər etdilər. Şəmsəddin Eldəniz, Məhəmməd Cahan Pəhləvan və Qızıl Arslan gürcülərin yürüşlərinin qarşısını almış, əks-hücum əməliyyatları aparmışdılar. Lakin Əbu Bəkr və Özbəyin dövründə vəziyyət ciddi şəkildə gürcülərin lehinə dəyişdi. Özlərindən əvvəlki hökmdarlar kimi güclü ola bilməyən son atabəylər dövlətin labüd sonunu gətirdilər. Əbu Bəkr gürcülərin yürüşlərinə qarşı etinasız davranırdı. O, bu yürüşlərin intensivləşdiyini gördükdə onun qarşısını ala bilmədiyindən nikah diplomatiyasına başladı. Özbəyin hakimiyyəti illərində isə gürcülərin Azərbaycan şəhərlərinə təşkil edilmiş böyük yürüşləri baş verdi. Özbək bu yürüşləri dayandırmaq üçün Xarəzmşahla ittifaqa daxil oldu. Bununla da, gürcülərin Azərbaycan torpaqlarına təşkil etdikləri yürüşlər dayandırıldı.

## ƏDƏBİYYAT


1. Azərbaycan tarixi: 7 cilddə. III c., Bakı: Elm, 2007, 608 s.
2. Bünyadov Z. Azərbaycan Atabəyləri dövləti. Bakı: Şərq-Qərb, 2007, 312 s.
3. Əliyev İ. Monqolların Naxçıvana hücumları və onun nəticələri / Şərqin Qapısı – Qədim diyar II. Naxçıvan: Əcəmi, 2024, s. 37-53.
4. İbn əl-Əsir. Əl Kamil Fi-t tarix / Tərcümə edən Əfəndizadə M. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı, 1959, 216 s.
5. Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki. Bakı: Elm, 1977, 158 s.
6. Nəcəf Ə. Səlcuqlu dövlətləri və Atabəylərin tarixi. Bakı: Qanun, 2010, 55 s.
7. Vəlixanlı N. Azərbaycan VII-XII əsrlərdə: tarix, mənbələr, şərhlər. Bakı: Elm və təhsil, 2016, 480 s.
8. Vəlixanlı N. Naxçıvan – ərəblərdən monqollaradək. Bakı: Elm, 2005, 152 s.
9. Al-İsfahani. Zubdat al-Nusra va Nuhbat Al`usra (İrak və Horasan Selçukluları tarihi) / Tərcümə edən Burslan K. Ankara: Türk Tarih Kurumu, 2023, 300 s.
10. Bitlisi Ş. Şerefname / Ərəbcədən tərcümə Bozarslan M.E. I c., İstanbul: ANT yayınları, 536 s.
11. El-Huseyni. Ahbar üd-Devlet is Selçukiye / Farscadan tərcümə edən Lugal N. Ankara: Türk Tarih Kurumu, 1943, 150 s.
12. Kazvini H. Tarih-i Güzide. Ankara: Türk Tarih Kurumu, 2018, 738 s.
13. Aksarayi K.M. Müsameratü`l-Ahbar / Tərcümə edən Öztürk M. Ankara: Türk Tarih Kurumu, 2023, 282 s.
14. Raşid al-din F. Cami` al-Tavarih / Fars dilində yayınlayan Ateş A. II c., Ankara: Türk Tarih Kurumu, 1999, 244 s.
15. Ravendi. Rahat-üs-Sudur ve Ayet-üs-Sürur. Ankara: Türk Tarih Kurumu, 2020, 469 s.
16. Sümer F. İldeniz, Şemseddin / İslam Ansiklopedisi. XXV c., Ankara: TDV, 2002, s. 544.

17. Sümer F. Kızıl Arslan / İslam Ansiklopedisi, XXV c., Ankara: TDV, 2002, 544 s.
18. Juvaini. The History of the World-Conqueror / Translated Boyle J.A. V. I-II, Manchester: Manchester University press, 1958, 763 p.
19. Minorsky V. Studies in Caucasian history. London: Taylor`s foreign press, 1953, 203 p.
20. Minorsky V. Nakhcıwan / The Encyclopaedia of Islam. V. VII, New York-Leiden: E.J.Brill, 1993, 923 p.
21. Zahir al din Nisapuri. Saljuqnama (History of Seljuq Turks) / Translated Luther K. New York, 2001, 189 p.
22. Mohammed ed-Nesawi. Historie du Sultan Djelal ed-din Mankobirti (prince du Kharezm) / Traduit de l`Arabe par Houdas O. Paris, 1895, 492 p.

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: kubra.1aliyeva@gmail.com***

**Kubra Aliyeva**

**NAKHCHIVAN REGION DURING THE GEORGIAN CAMPAIGNS IN AZERBAIJAN (20s OF THE XII-XIII CENTURIES)**

The article considers the Georgian attacks on Azerbaijan in the 12th-13th centuries. It is shown that as a result of these attacks, Azerbaijani cities were destroyed, and the cultural and economic life of the country was dealt a heavy blow. To prevent these raids, the atabeys organized campaigns against the Georgians and fought against them. The article also provides information about the Georgian attacks on Azerbaijani cities during the last atabeys, during which the territory of Nakhchivan suffered great damage.

**Keywords:** *Shamsaddin Eldeniz, the city of Nakhchivan, Georgian raids, Abu Bakr, Uzbek, Dvin, the city of Ganja.*

**Кубра Алиева**

**НАХЧЫВАНСКАЯ ОБЛАСТЬ ВО ВРЕМЯ ПОХОДОВ ГРУЗИН В АЗЕРБАЙДЖАН (20-е ГОДЫ XII-XIII ВЕКОВ)**

В статье сообщается о нападении грузин на Азербайджан в XII-XIII веках. Показано, что в результате этих нападений азербайджанские города подвергались разрушениям, культурно-экономической жизни страны был нанесен тяжелый удар. Чтобы предотвратить эти набеги, атабеки организовывали походы на грузин, вели против них борьбу. В статье также представлена информация о нападениях грузин на азербайджанские города во время последних атабеков, в ходе которых территория Нахчывана понесла большой ущерб.

**Ключевые слова:** *Шамсаддин Эльдениз, город Нахчыван, грузинские набеги, Абу Бакр, Узбек, Двин, город Гянджа.*

*(AMEA-nın müxbir üzvü Hacıfəxrəddin Səfərli tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 07.09.2024**
**Son variant 15.10.2024**